# Zəfərimiz dünyaya Xocalı soyqırımını tanımaq mesajıdır

## *30 il görməzdən, eşitməzdən gələn dünyanın aparıcı dövlətləri, nüfuzlu beynəlxalq təşkilatları artıq erməni vəhşiliklərini etiraf edirlər*



Azərbaycan diplomatik mübarizə ilə yanaşı, döyüş meydanında da üstünlüyünü, qalibiyyətini nümayiş etdirdi. Azərbaycan Ordusu 44 gündə Qələbələri ilə tarix yazmaqla 30 ilə yaxın bəyanatları kağız üzərində qalan dövlətlərə, nüfuzlu beynəlxalq təşkilatlara bu həqiqəti çatdırdı ki, sülh danışıqları səmərə vermədiyi təqdirdə hərb yoluna üstünlük veriləcəyi, ən əsası işğal altında olan bütün torpaqlarımızın azad olacağı qaçılmaz idi. Dövlətimizin başçısı İlham Əliyev müharibənin davam etdiyi 44 gündə xarici ölkələrin televiziya kanallarına müsahibələrində, həmçinin xalqa müraciətlərində Ermənistanın yeni ərazilər iddiası ilə müharibə planının mövcudluğundan, hər vasitə ilə danışıqlar prosesini pozmaq cəhdlərindən, bütün bu çirkin əməllərin qarşılığında Azərbaycanın heç zaman öz mövqeyindən geri çəkilməyəcəyindən, ən əsası isə işğalçı dövlətin danışıqlar masası ətrafında oturacağından bəhs edərək, bu bəyanatla yekun vururdu ki, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq!

Azərbaycan 44 gün davam edən İkinci Qarabağ müharibəsində Zəfər qazandı. Qətiyyətli əks-hücum əməliyyatları Azərbaycan Ordusunun gücünü bir daha işğalçı dövlətə və onun havadarlarına nümayiş etdirdi. Azərbaycan Ordusunun qarşısında aciz duruma düşən Ermənistan silahlı qüvvələri silah-sursatı, hətta papaqlarını ataraq geri çəkilirdilər. Bu əməliyyatların Azərbaycan Ordusunun şanlı tarixində öz yeri olacaq. Necə ki, 2016-cı ildə Aprel döyüşlərində düşmənə dərs verildi və Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğaldan azad olundu. 2018-ci ildə uğurlu Naxçıvan əməliyyatı nəticəsində on min hektardan çox torpaq sahəsi Azərbaycan Ordusu tərəfindən götürüldü və işğalçılar o bölgələrdən qovuldu. 2020-ci ilin 12 iyul təxribatlarının qarşısı qətiyyətlə alındı. Dövlətimizin başçısı İlham Əliyev xalqa müraciətlərində bu məqamı xüsusi qeyd edirdi ki, Nikol Paşinyan demişdi ki, verməyəcəkdi bu torpaqları: "Kimdir səndən soruşan, verəcəksən ya verməyəcəksən?! Gəldik götürdük, vəssalam."

Hər zaman çıxışlarında "Ermənistan heç vaxt açıq döyüşdə qələbə qazana bilməyib və bilməz" söyləyən cənab İlham Əliyev bu faktı da açıqlayır ki, torpaqların itirilməsi o vaxt hakimiyyətə göz dikmiş Azərbaycan Xalq Cəbhəsinin və onun başında dayananların xəyanətidir. O vaxt Azərbaycanda vəziyyəti qarışdırmaq, hərc-mərclik yaratmaq, hakimiyyəti yıxmaq üçün onlar Qarabağ bölgəsində xəyanət etmişlər. Azərbaycan Xalq Cəbhəsinin başında dayananlar nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək üçün torpaqları satdılar və beləliklə, o vaxtkı hakimiyyəti yıxa bildilər. Ona görə Ermənistan hər zaman bu imkanlardan faydalanıb: "İndi də özləri gizlətmirlər ki, o vaxt Azərbaycanda xaos, anarxiya idi, onlar bundan istifadə edib torpaqlarımızı zəbt etdilər. O vaxt Azərbaycan Xalq Cəbhəsi Gəncəni bombalayırdı, Azərbaycan əsgərlərini əsir götürmüşdü. Orada torpaq əldən gedirdi, burada isə onlar hakimiyyət uğrunda mübarizə aparırdılar və əfsuslar olsun ki, öz çirkin əməllərinə nail oldular. Hakimiyyətə gəldilər, daha çox torpaq verdilər, sonra da biabırcasına qaçıb gizləndilər, fərarilik etdilər. Bütün bunlar bizim tariximizdir."

Bu tarixi inkar etməyə çalışan işğalçı Ermənistanın beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymaması və bunun qarşılığında ona qarşı hansısa təzyiqin göstərilməməsi daha böyük iddialarla yaşamasına stimul verirdi. Rəsmi Bakı daim bəyan edirdi ki, Azərbaycanın ərazi bütövlüyü, Dağlıq Qarabağa müstəqillik verilməsi məsələsi qətiyyən müzakirə mövzusu ola bilməz. Ermənistan tərəfi bunu nə qədər tez başa düşsə və maksimalist, qeyri-realist, qeyri-qanuni yanaşmalardan imtina etsə, bu, onlar üçün də, sülh prosesi üçün də bir o qədər faydalı olar.

Bu fakt beynəlxalq ictimaiyyətə də çox yaxşı bəlli idi ki, Ermənistan rəhbərliyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı irəli sürülmüş bütün təşəbbüslərin qarşısını almağa çalışmış, bu məqsədlə bütün mümkün vasitələrdən istifadə etmişdir. Sentyabrın 27-dən başlanan əks-hücum əməliyyatları status-kvonu dəyişdi. Cənab İlham Əliyev bildirdi ki, status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi: "Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini... Azərbaycan əsgərinin qabağında heç kim heç nə edə bilməz." Azərbaycan Ordusu o təmas xəttini darmadağın etdi, torpaqlarımızı geri aldı. Tarixi qələbə çaldıq. Bu Qələbə Azərbaycan xalqının əldə etdiyi qələbələr arasında ən parlaq qələbədir.

44 günlük müharibə zamanı döyüş meydanında məğlubiyyəti ilə barışmayan Ermənistan silahlı qüvvələri baş nazir Nikol Paşinyanın əmrinə uyğun olaraq üç dəfə əldə edilmiş humanitar razılaşmanı kobud şəkildə pozaraq Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə bölgəsindən xeyli kənarda yerləşən Gəncəni iki dəfə, ondan sonra Bərdəni raket hücumuna məruz qoydular. Bu, Azərbaycan xalqına qarşı soyqırımı aktlarıdır. Qeyd edək ki, erməni vəhlikləri nəticəsində 100-ə yaxın mülki şəxs həlak olub, 400-dən çox günahsız insan yaralanıb. İşğalçı dövlət cinayət əməlləri ilə beynəlxalq hüququn fundamental prinsiplərinə, həmçinin beynəlxalq humanitar hüquq və Cenevrə konvensiyalarına məhəl qoymadığını açıq-aşkar nümayiş etdirdi. Bunlar erməni faşizminin növbəti təzahürləridir. Ermənistanın bu alçaq əməlləri Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməzdi. Onların qisasları döyüş meydanında alındı. 44 günlük müharibə dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində ölkəmizin hərbi-siyasi Qələbəsi, Ermənistanın kapitulyasiyası ilə başa çatdı. Noyabrın 10-da imzalanan üçtərəfli razılaşma bir daha haqqın, ədalətin geç-tez öz yerini tutacağını dünyaya nümayiş etdirdi. Azərbaycan Ordusu dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların 30 ildə edə bilməyəcəklərini etdi. Beynəlxalq hüququn mövcudluğu və onların böyüklüyündən. kiçikliyindən asılı olmayaraq bütün dövlətlərə tətbiqinin vacibliyi bir daha dünyaya çatdırıldı. Azərbaycan bölgədə yeni reallıqlar yaratdı, dünyanın xarici siyasətində yeniliklər etdi. Bu gün artıq regionda yeni əməkdaşlıq formatlarının yaradılmasından bəhs edilir. 30 ilin işğalına son qoyulmaqla bir daha bu reallıq da işğalçı dövlətə və onun havadarlırına çatıdrıldı ki, tarix saxtakarlığı sevmir, hər zaman faktlara əsaslanır. Tarixi həqiqətlər, real faktlar təsdiqləyir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. 30 il bu həqiqəti bildikləri halda işğalçı Ermənistana havadarlıq edən dövlətlər Azərbaycan Ordusunun qüdrəti sayəsində bir daha əmin oldular ki, tarixi silmək mümkün deyil.

Yaxın günlərdə XX əsrin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının 29 ili tamam olacaq. Ermənilərin zaman-zaman azərbaycanlılara və türklərə qarşı soyqırımı siyasəti həyata keçirdikləri faktdır. Xocalı faciəsi XX əsrin son on illiyinin ən dəhşətli faciələrindən biridir. Yüzlərlə günahsız insanın, xüsusilə qadınların, qocaların, uşaqların bir gecədə qətlə yetirilməsi dünya tarixində az rast gəlinən faciələrdəndir. 29 il ərzində faciənin mahiyyətini bütün təfərrüatı ilə beynəlxalq ictimaiyyətə çatdırmaq üçün ciddi səylər göstərilib. Amma dünya "nədənsə" Xocalı harayına cavab vermək istəməyib. Azərbaycanın 44 gündə Ermənistana və ona 30 ildə havadarlıq edən dövlətlərə keçdiyi tarix, hüquq və qürur dərsi Xocalı faciəsinə həqiqət gözü ilə baxmağı bir tələbə çevirir.

29 il bundan öncə baş verən erməni vəhşiliyini bir daha ötən müddətdə qulaqları eşitməyən, gözləri görməyən, amma 44 günlük müharibədə Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində gözləri, qulaqları açılan dövlətlərin diqqətinə çatdırırıq. Xocalı faciəsi 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri ilə Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə törədilib. Hücumdan əvvəl, fevralın 25-də şəhər toplardan və ağır zirehli texnikalardan atəşə tutulub, nəticədə böyük dağıntılar və yanğınlar baş verib. Fevralın 26-sına keçən gecə şəhər tamamilə alova bürünüb. Şəhəri yerlə-yeksan etmiş erməni quldur dəstələri və motoatıcı alayın hərbçiləri dinc əhaliyə divan tutub. Bu qırğın nəticəsində həlak olan 613 nəfərin 63-ü uşaqlar, 106-sı qadınlar, 70 nəfəri qocalar olub. 8 ailə tamamilə məhv edilib. Ermənilər sağ qalmış insanlara işgəncələr verib, başlarının dərisini soyub, uşaqların gözlərini çıxarıblar. Bu, insanlığa sığmayan vandalizm aktı, vəhşilik, cinayətdir. Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətlamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımıları ilə bir sırada dayanır.

Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində dövlətimizin başçısı İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın atdıqları addımların uğurlu nəticələri göz önündədir. Əksər dövlətlərin parlamentləri Xocalı faciəsini soyqırımı kimi tanıyır. Heydər Əliyev Fondu tərəfindən hazırlanan vəsaitlər-kitablar, albomlar, videodisklər dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı ilə əlaqədar keçirilən tədbirlərdə təbliğat vasitəsi kimi istifadə edilir. Xocalı soyqırımı qurbanlarının xatirəsi onlarla ölkədə anılır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın başladığı "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində həyata keçirilən tədbirlərin həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılmasında rolu böyükdür.

Artıq üçrəngli bayrağımız işğaldan azad edilmiş torpaqlarımızda qürurla dalğalanır. Azərbaycanın Qələbəsinin dünyaya təqdimatında mühüm rol oynayan 10 dekabr Zəfər paradında ermənilərdən qətimət kimi götürülmüş hərbi texnikanın nümayişi işğalçı dövlətin bu günədək yaratdığı "güclü erməni ordusu" mifinin darmadağın edilməsinin göstəricilərindən idi. Şəhidlərimizin qanı ilə yazılan Zəfər Günümüz daimi olacaq. Artıq işğaldan azad edilmiş torpaqlarımızda yeni həyat başlayıb. Xalqımız tam əmindir ki, dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində Xocalı soyqırımını törədən erməni cinayətkarları beynəlxalq məhkəmə qarşısında cavab verəcəklər. 44 günlük müharibə dövründə Azərbaycan Ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının icraçıları da var idi.

44 günlük Vətən müharibəsi Ermənistanı diz çökdürdü, ona bu günədək qəbul etmək istəmədiyi beynəlxalq hüququn mövcudluğunu qəbul etdirdi. Artıq Dağlıq Qarabağ münaqişəsi ifadəsi tarixdə qalıb.

**Yeganə Əliyeva,**
***"İki sahil"***